*"Metafizika" Journal*
***2022, vol 5, number 4, serial 20, pp.129-139***

***HÜQUQ VƏ SİYASİ ELMLƏR***

**UOT:** 34:340.14
**KBT:** 67.400.6
**MJ №** 146

# Qanunvericilik texnikası

**Habil Qurbanov***

**Abstrakt.** Qanunvericilik texnikası özündə normativ hüquqi aktların layihələrinin özforma və strukturuna görə ən mükəmməl surətdə hazırlanması ilə bağlı üsul və vasitələrin sistemini ehtiva edir. Qanunvericilik texnikasında təkcə milli deyil, həm də xarici ölkələrin yüzilliklər ərzində təşəkkül tapmış hüquqyaradıcılıq təcrübəsindən geniş istifadə edilir. Qanunvericilik texnikasının xüsusi hüquqi vasitələrinə aşağıdakılar aid edilir: 1) hüquq dili; 2) hüquqi konstruksiyalar; 3) qanunvericilik aktının, qanunyaradıcılıq prosesinin rəsmiləşdirilməsi qaydası; 4) qanunvericiliyin sistemləşdirilməsi. Qanunyaratma prosesi yeni qanunvericilik aktının meydana gəlməsinə aparan xüsusi mərhələlərin olmasını nəzərdə tutur. Qanunvericiliyin sistemləşdirilməsi problemi və onun əsas komponentləri ayrıca və əlahiddə şəkildə təsvir edilir.

**Açar sözlər:** hüquqi sənəd, qanunlar, hüquqyaratma, normativ material, prosedur, hüquqi konstruksiya

## 1.Giriş

### 1.1.Qanunvericilik texnikası: təyinatı və prinsipləri

Hüquqyaratma prosesi bilavasitə qanunvericinin iradəsinin formalaşması ilə şərtləşir. Qanunverici normativ hüquqi aktda onun təsvirinin aydınlığını, əlçatanlığını, hüquqi mətnin birmənalılığını, dürüstlüyünü və dolğunluğunu nəzərdə tutur. Bununla belə, həmin prosesdə hüquqi sənəddə onu tətbiq edənlərin məqsədlərini və sənədin özünün mahiyyətinin təsbit edilməsi prosesini müəyyənləşdirən xüsusi başlanğıc və müddəalardan istifadə etmək vacibdir.

Qanunvericilik texnikası özündə normativ hüquqi aktların layihələrinin özforma və strukturuna görə ən mükəmməl surətdə hazırlanması

* Hüquq üzrə elmlər doktoru, professor;
Hüquq və İnsan Haqları İnstitutu, baş elmi işçi, Bakı, Azərbaycan
E-mail: professorqurbanov@yandex.com
https://orcid.org/0000-0002-1893-208X

**Məqaləyə istinad:** Qurbanov, H. [2022] Qanunvericilik texnikası. *"Metafizika" jurnalı. 5(4),* səh. 129-139.

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 12.11.2021*
*Təkrar işlənməyə göndərilmişdir: 24.12.2021*
*Çapa qəbul edilmişdir: 14.10.2022*

ilə bağlı üsul və vasitələrin sistemini ehtiva edir. Həmin üsul və vasitələrin sistemi normativ göstərişlərin formalarının onların məzmununa tam və dürüst uyğunluğunu təmin etməlidir. Qanunvericiliyin mükəmməllikdərəcəsi, normativ hüquqi aktların anlaşıqlı olması, qanunvericiliyin sistemləşdirilməsinin yüksək səviyyəsi və normativ aktın hamı tərəfindən eyni cür başa düşülməsiqanunvericilik texnikası qaydalarına əməl edilməsindən xeyli asılıdır.

## 2.1.Hüquqyaratma

Məlum olduğu kimi, hüquqyaratma hüquq normalarının yaradılmasına, onların daha da təkmilləşdirilməsinə, habelə zərurət yarandığı zaman həmin normaların dəyişdirilməsinə və ləğvedilməsinə yönələn dövlət fəaliyyəti formasıdır. Bu, ümumməcburi normaların vahid və daxilən razılaşdırılmış sistemi kimi qüvvədə olan hüququn yaradılması və inkişaf etdirilməsi prosesidir. Bunlar ictimai münasibətləri tənzim edən, hüquqi tənzimetmənin bərqərar olması üzrə fəaliyyət üçün rəsmi əhəmiyyət kəsb edən ümumməcburi normalardır.

Hüquqyaratma öz mahiyyətinə görə dövlət iradəsinin qanuna müncər edilməsideməkdir. Bu, hüquqi göstərişlərin ümumməcburi mənaya malik olduğu qanundur.

Hüquqyaratma (qanunvericilik) texnikası dedikdə, normativ materialın hazırlanması, rəsmiləşdirilməsi və sistemləşdirilməsinin təşəkkül tapmış qayda və üsullarının məcmusu başa düşülür.

Praktikada hüquqyaratma texnikası müxtəlif ölkələrdə yüksək hüquqi qüvvəyə malik aktların yaradılması prosesindəki işgüzar vərdişlərdə, yaxud adət və ənənələrdə daha çox təzahür edir. O, nəzəriyyədə təlimə çevrilir. Bu təlimin təşəkkültapmasına Qədim Romanın, İngiltərənin (U.Blekston, İ.Bentam), Almaniyanın (R.İyerinq, Q.Vek, Q.Xane), Fransanın (F.Jeni, S.Daben), Rusiyanın (M.M.Speranski, P.İ.Lyublinski, M.A.Unkovski) hüquqşünasları mühüm töfhə vermişlər. Müasir qanunvericilikdə hüquqyaratma texnikasının qayda və üsulları xüsusi normativ aktlarla (qanunlarla, əsasnamələrlə, reqlamentlərlə) rəsmiləşdirilir.

Qəbul edilən qanunlar dövlətin hüquqyaratma funksiyasının çox nəzərə çarpan tərəfi olmuş və indi də belə bir tərəf olduğuna görə bəzən alternativ qismində “qanunvericilik texnikası” anlayışından istifadə olunur.

## 3.1.Qanunvericilik texnikası

Bu, qanunvericilik müddəaları formalarının onlarda ehtiva olunmuş hüquqi mənaya, onların əlçatanlığına, razılaşdırılması və qeyri ziddiyyətliliyinə uyğunluğunu təmin etməyə xidmət edən qanunvericilik aktlarının hazırlanıb rəsmiləşdirilməsinin qayda və üsullarının sistemidir.

Qanunvericilik texnikasında təkcə milli deyil, həm də xarici ölkələrin yüzilliklər ərzində təşəkkül tapmiş hüquqyaradıcılıq təcrübəsindən geniş istifadə edilir. Onun realizəsi qüvvədə olan qanunvericiliyin səmərəliliyini yüksəltməyə, hüquqda boşluqların yerinin doldurulmasına və hüquqi kolliziyaların sayının aşağı salınmasına, hüququ tətbiqetmə fəaliyyətində və bütövlükdə cəmiyyətdə hüquq mədəniyyətinin yüksəldilməsinə kömək edir. Buna görə də hüquqyaratma prosesi dayaqlı qaydalara əsaslanmalı, hüquq nəzəriyyəsi və hüquqi praktikada öz təsdiqini tapmış tələblərə cavab verməlidir.

Qanunvericiliktexnikasının əsas prinsipləri içərisində aşağıdakılar fərqləndirilir:

1)qanunun müddəalarının hüquqi tənzimetmənin məqsədlərinə uyğunluğu;

2)qanunvericilik müddəalarının məntiqi qeyri ziddiyyətliliyi;

3)hüquqi formanın müəyyənliyi;

4)hüquq dilinin aydınlığı və səlistliyi;

5)müddəaların konkretliyi;

6)hamılıqla qəbul edilən anlayış və ifadələrin sabitliyi;

7)hüquqi formulaların kompatlılığı;

8)sistemlilik.

**2.Qanunların rəsmiləşdirilməsinin əsas dil vasitələri**

Qanunvericilik texni-kasının xüsusi hüquqi vasitələrinə aşağıdakılar aid edilir:

-hüquq dili;

-hüquqi konstruksiyalar;

-qanunvericilik aktının, qanunyaradıcılıq prosesinin rəsmiləşdirilməsi qaydası;

-qanunvericiliyin sistemləşdirilməsi.

**3.Hüquq dili**

Bu, qanunun anlayış məzmununu müəyyən edən qrammatik, məntiqi və digər üsulların, vasitələrin məcmusudur. Göstərmək zəruridir ki, dil mükəmməl ünsiyyət vasitəsi, müvazinət alətidir. Dil hər xalqın, etnosun ümumi mədəniyyətinin ən əhəmiyyətli tərkib hissəsidir. Dil hər bir ölkənin və onun əhalisinin varlığının əsasını təşkil edir. Bunun nəticəsidir ki, müasir dövrün hər bir inkişaf etmiş dövlətində ana dilinə xüsusi diqqət yetirilir, onun qorunması və saflığının saxlanması ön planda durur.

Cəmiyyətin və dövlətin tarixi inkişaf mərhələlərindən aydın olur ki, bütün elmlər özünəməxsus dil potensialına, zəngin söz ehtiyatına malik olmuşdur və bu ənənə indi də davam etməkdədir. Məsələn, ədəbiyyatın,

tarixin, fəlsəfənin, sosiologiyanın, riyaziyyatın, fizikanın, kimyanın, nəhayət hüquq elminin özünəməxsus dili və üslubu, əlahiddə termin və məfhumları vardır. Necə ola bilər ki, hüquqşünasın nitqi ilə həkimin, mühəndisin vəya müəllimin danışıq, yazı dilində fərq olmasın? Axı, dövlət ittihamçısını ittiham nitqi ilə həkimin verdiyi tibbi məsləhət və ya tövsiyənin dili eyni ola bilməz... Məhz bu nöqteyi nəzərdən hüquq dili qanunvericinin iradəsinin mətn (məntiqi, stilistik və dil fəndləri) formasında dəqiq və adekvat şəkildə ifadə olunmasına nail olmağa imkan yaradır.

Hüquq dilinə qanunvericilik aktının məna əhəmiyyətinin təsbitinin öz vasitələrinin olması xasdır.

**1.3. Mətnin təşkili və rəsmiləşdirilməsinin qanunauyğunluqları**

Qanunun sözlərdən və sabit söz birləşmələrindən yaranan mətninin əsas dil vahidi kimi normativ qrammatik cümlələr daxili qanunauyğunluqlara tabedirlər. Belə qanunauyğunluqlar içərisində aşağıdakılar fərqləndirilir:

1) neytrallığı, konkret hüquqi situasiyaya, konkret şəxslərə qeyri adaptasiyalılığı nəzərdə tutan məzmunun şəxssiz xarakteri;

2) qanun müddəalarının normativliyinin (sual və ya nida formalarını istisna edən nəzərdə tutduğu nəqledici və təsdiqedici cümlələr) qrammatik formasının adekvatlığı;

3) eynicinsli üzvə malik sadə cümlələrin yenidən yüklənməsinin olmaması qanunvericinin fikirlərinin qavranılmasını çətinləşdirir. Məsələn, bu, rəqəmli (1,2,3...) və ya hərfli (A, B, C...) qrafikanın köməyilə aradan qaldırılır. Yəni “və i.a.”, “və s.”, yaxud “və başqaları” qrafik işarələr buna xidmət edir;

4) hüquq normalarının təbiətinə xas olmayan birləşdirici bağlayıcılardan (“isə”, “lakin”, “ötrü”, “heç olmasa” və s.) istifadə yolverilməzliyi.

**2.3. Hüquqi polisemiya**

Hüquqi polisemiya qanunvericinin fikirlərinin dəqiqləşdirilməsini nəzərdə tutur və bir söz çərçivəsində müxtəlif mənaların qruplaşdırılmasının əlaqə və oxşarlıqları əsasında nəticə kimi çoxmənalılıq ifadə olunur (qanunvericilikdə “hüquqi akt” anlayışını hüquqauyğun və qeyri hüquqi akt, normativ hüquqi akt, fərdi hüquqi akt, rəsmi təsir aktı kimi təqdim edilə bilər).

**3.3.Hüquqi sinonimiya**

Hüquqi sinonimiya (sinonimlik) sözlərin və söz birləşmələrinin qarşılıqlı əvəzləyiciliyini nəzərdə tutur ki, bu da qanunvericinin iradəsini müfəssəlləşdirməklə, mətnin dilini daha da zənginləşdirir. Hüquqi mətnin eyni cür başa düşülməsi və tətbiqi üçün onun dəqiqliyi və aydınlığı nəzərə

alınmaqla, qanunyaratmada aşağıdakılardan istifadənin yolveriməzliyinə diqqət yetirilməsi vacibdir:

-kvazisinonimlər (sinonimik qohumluqda olmayan sözlər, məsələn, “yazılı rəy” və “ekspertiza”);

-qeyri dəqiq qiymətləndirici sözlər (“sorğu” və “iddia”);

-qanunun mətnində sistemsiz istifadə olunan və öz bolluğu ilə onun müddəalarının qavranılması səmərəliliyini aşağı salan sinonim artıqlığı.

**4.3.Hüquqi antonomiya**

Hüquqi tənzimetmə üsullarında sözlərin qarşılıqlı istisnaetmə, zidd mənasının istifadəsinə əsaslanan hüquqi antonomiya (“hüquq” və “vəzifə”, “hüquqauyğun davranış” və “hüquq pozuntusu”).

**5.3.Hüquqi paranomiya**

Yazılışına görə yaxınlığı, lakin sözün və anlayışın mənasına görə ziddiyi onları ayırmağa imkan verən hüquqi paranomiya (sinfi, sinifli imla və diktator).

**6.3.Hüquqi arxaizmlər**

Predmet və hadisələrin real gerçəkliyində ad kimi mövcud olan, fəal hüquqi leksikanın digər sözləri ilə sıxışdırılan arxaizmlər (köhnəlmiş sözlər). Arxaizmlərdən istifadə edilərkən onların nə qədər məşhur ibarələr olduğuna hamılıqla qəbul edildiyinə əmin olmaq zəruridir. Mütəxəssislər əsasən aşağıdakılara diqqət yetirilməsinə üstünlükverirlər:

-bilavasitə hüququn özündəki arxaizmlərə, yəni hüquqa ictimai münasibətlərin digər sferalarında gətirilmiş sözlərə (“pay”, “fiskal”, “manufaktura”);

-hüquqi irsdən ibarət olan (qədim hüquqdan miras qalan) hüquqi arxaizmlərə (“küpçi”, “mühafizəçi”, “zaminlik”).

**7.3.Yad dilli leksika**

Yaddilli leksika müasir hüquq sistemlərində fəal mövqe tutur, lakin qa-nunvericinin, bununla bağlı ana dilinin ehtiyatlarını nəzərə alaraq, yad hüquqdan əxz edilmiş leksik sözlərlə hüquqi mətnin yüklənməsi tövsiyə edilmir. Belə ki, yaddilli leksik bizə anadilli hüquqi terminləri zaman keçdikcə unutdura bilər. Bununla belə, beynəlmiləl hüquqi terminlərdən istifadə tövsiyə edilir. Beynəlmiləl xarakterli termin və məfhumlar hüquq dilimizi zənginləşdirir.

**8.3.Peşə leksikası**

Peşə leksikası ümumişlək sözlər sisteminin statusuna malik deyil. O, hər şeydən əvvəl, mütəxəssislərin bir-biri ilə ünsiyyətindən ötrü peşə terminologiyasının lüğətindənibarətdir. Buna görə də peşə leksikasından adətən, mütəxəssislərin iş, fəaliyyət və yaradıcılıq prosesində istifadə olunur.

**9.3.Sadə nitq və jarqon leksikası**

Sadə nitq və jarqon leksikası məişət danışıq nitqi növü hesab olunur. Lakin bununla belə, müxtəlif əlverişli məqamlarda qanunvericilik sferasına da yol tapır ("süründürməçilik", "get-gələ salma", "barmaq boyda", "bir qarış", "əl alverçisi" və s.).

**10.3.Hüquqi abbreviatura**

Hüquqi abbreviatura ixtisar edilmiş sözlərin, müxtəlif söz birləşmələrinə daxil olan sözlərin birinci (baş) hərflərindən yaranır. Qənaət və münasib ifadəetmə məqsədi ilə qanunvericilik mətnlərində bəzi sözlərin və söz birləşmələrinin ixtisar formasın-dan istifadə olunur (məsələn, AR, Azərinform, DİN, XİN, MSK, FTB, DTX və s.). Abbreviaturanı tətbiq edərkən sosial həyatın digər sferalarında ixtisarların qeyri-təkrarlığına, onların yüksək estetikliyinə, ifadə tərzinə, eləcə də onların nəyin və kiminsə şərəfinə, əxlaqi-mənəvi və siyasi ləyaqətini azaltmamasına diqqət yetirilməsi zəruridir. Təcrübə göstərir ki, bəzək sözlərin ixtisarı xoşagəlməz sözlərin ifadə olunması ilə müşayət olunur. Bu da öz növbəsində cəmiyyətdə müəyyən narazılıqlar yarada bilər və adətən, yaradır.

**4.Hüquqi konstruksiyalar qanunvericilik materialının düzülüş qaydası kimi**

Bu, normativ materialın hüquqi aktın qarşılıqlı təsirə malik elementlərinin fərqləndirilməsi əsasında düzülüş qaydalarıdır. Xüsusən qanunun işlənib hazırlanması prosesində qəbul edilən aktın həcmi ilə onun da əhəmiyyəti yüksəlir və artır. Hüquqi konstruksiyalar qanunvericilik texnikasının vasitəsidir və o, qanunun məntiqi quruluşunun modelləşdirilməsindən ibarətdir. Hüquqi konstruksiya qaydaları gələcək qanunvericilik aktının mücərrədləşdirilməsi (ideallaşdırılması) yolu ilə yaradılan hüquqi modelin seçimini tələb edirlər.

Hüquqi konstruksiyalar ümumməcburi davranış qaydaları kimi aktın normalarının formalaşdırılması tapşırığı zamanı da zəruridir. Belə tapşırıqlar aşağıdakılardan ibarət ola bilər:

1) qanunvericilik aktının müəyyən növünün seçilməsi (konstitusiya qanunu, beynəlxalq müqavilənin ratifikasiya edilməsi haqqında qanun və s.);

2) qanunvericilik orqanının müəyyənləşdirilməsi (parlamentin aşağı palatası, parlamentin hər iki palatası, federasiya subyektlərinin qanunvericilik məclislərinin prosesə cəlb edilməsi);

3) qanunvericilik aktına daxil edilən normativ materialın eynicinsli olduğunu müəyyən edən hüquqi tənzimetmə predmetinin seçilməsi (müəyyənictimai münasibətlər və ya münasibətlərin iştirakçılarının hüquqi davranışı);

4) qüvvədə olan qanunvericilik aktlarının və oxşar hüquq münasibətlərini və hüquqi davranışın növlərini tənzimləyən digər normativ hüquqi aktların təhlili;

5) gələcək qanunvericilik aktının, onu təşkil edən hissələrin sxemlərinin işlənib hazırlanması.

**5. Hüquqi konstruksiya qaydalarının tələbləri**

Hüquqi konstruksiya qaydaları aşağıdakıları tələb edir:

1) qanunvericilik aktına onun əlaqələndirilməsi və ardıcıllığı əsasında qurulan eynicinsli və qarşılıqlı əlaqəli normativ materialın daxil edilməsi (ictimai münasibətlərin müəyyən sferalarını tənzimləyən məcəlləşdirilmiş aktlar);

2) qanunvericilik aktında əvvəlcə maddi hüquq, sonra isə prosessual hüquq normalarının yerləşdirilməsi (məsələn, İnzibati Xətalar Məcəlləsi);

3) qanunvericilik aktında əvvəlcə ümumi xarakterli, sonra isə konkretləşdirici normaların yerləşdirilməsi.

Qanunvericilik aktlarının konstruksiyalaşdırılmasında adətən, abstrakt və kazuistik üsullar tətbiq edilir. Onlardan birincisi ümumiləşdirilmiş cinsi anlayışlardan istifadə olunması ilə səciyyələndirilir ki, bu da, məsələn, istisnasız olaraq hamıya xas olan insan hüquqlarının “özgəninkiləşdirilməzliyini və anadangəlmə” olduğunu müəyyənləşdirən konstitusiya normaları üçün xarakterikdir. Kazuistik üsul hüquq norması ilə tətbiq edilən davranış qaydalarını konkretləşdirən faktiki halları nəzərdə tutur.

Hüquqi konstruksiyalar aşağıdakı cəhətlərinə görə fərqləndirilirlər.

1. Ümumiləşdirmə qüvvəsinə görə:

- ümumhüquqi konstruksiyalar- pozitiv hüququn bütün sisteminə şamil olunur və onun xarakterini, məzmununu müəyyən edirlər (məsələn, hüququn mənbəyi kimi qanunun hüquqi konstruksiyası);
- sahələrarası konstruksiyalar- hüquqi hadisələri hüququn bir neçə sahəsinə xas olan səviyyədə modelləşdirirlər (məsələn, hüquq qabiliyyəti və fəaliyyət qabiliyyətinin vəziyyətinin hüquqi konstruksiyası; cinayət hüququnda və ya inzibati hüquqda hüquq pozuntusunun törədilməsində fiziki şəxsin təqsirinin formalarının hüquqi konstruksiyası);
- sahəvi konstruksiyalar;
- sahədaxili konstruksiyalar;
- institusional konstruksiyalar;

2. Mənşəyindən asılı olaraq:

- şəxsi konstruksiyalar- öz mənşəyi ilə konkret qanunlara “borclu” olan hüquqi konstruksiyalar;

- resepsiyalaşdırılmış konstruksiyalar- əxz edilmiş hüquqi konstruksiyalar, dövlətdaxili di-gər hüquq sahələrindən və ya beynəlxalq hüquqdan aprobasiya edilmiş hüquqi konstruksiyalar;

- eksperimental konstruksiyalar- nümunə və ya gələcək qanuvericilik modelinin prototipi qismində istifadə edilən hüquqi konstruksiyalar (model qanunlar və ya tövsidəedici qanunvericilik aktları; belə nümunə modellər eksperimentlərin keçirilməsi yolu ilə olunurlar);

- unifikasiyaedici konstruksiyalar- milli qanunvericiliyin dövlətlərarası ittifaqların tələbləri ilə harmoniyalaşdırılmas

**6.Nəticə**

Qanunvericilik aktının strukturu və elementlərinin məzmunu. Bunlar nəticə etibarı ilə dürüst seçilmiş terminologiyanı deyil, həm də qanunun müəyyən zahiri formal atributlarını tələb edirlər. Həmin atributlara aşağıdakılar aid edilir.

1. Mütləq məlumatlar kimi qanunun təyinatnı göstərən rəsmi rekvizitlər, çünki bunlar ol-madan qanunun normativ- hüquqi akt qismində varlığı qeyri mümkündür. Qanunun mövcudluğu isə aşağıdakılarla təsdiq edilir:

-qanunun növününadı (üzvi qanun, konstitusiya qanunu, məcəllə və s.);

-qanunun sərlövhəsi (başlığı)- o cümlədən, həmin normativ-hüquqi aktın tənzimetmə predmetini müəyyənləşdirir, bu isə qanunun məcburi elementi və hüquqi sənədin axtarılan nümu-nəsinin tərkib hissəsidir;

-qanunu qəbul edən orqanın adı- belə ki, qanunun hüquqi qüvvəsi qanunyaratma orqanının (qanunun xalqın səsverməsi ilə, parlament (onun palatalarından biri tərəfindən, qanunvericilik səlahiyyətlərinin verilməsi nəticəsində ölkənin prezidenti və ya hökuməti tərəfindən yaradılması) səviyyəsindən asılıdır;

-qanunun sıra nömrəsi və qəbul edildiyi tarix- bu, qanunu eyniləşdirməyə və hüququn mənbələri iyerarxiyasında onun müvafiq yeri tutmasına kömək edir;

-qanunun hüquqi qüvvəyə minmək proseduruna daxil edilməsini təmin edən rəsmi vəzifəli şəxslərin imzası.

2. Qanunun rubrikalaşdırılması (daxili struktur). Bu klassik model özündə aşağıdakıları ehtiva edir:

1) preambul- özündə adətən, qanunun qəbulu motivlərini, onun məqsəd və vəzirələrini ehtiva edir;

2) qanunun normativ- elementli məzmunu- (həcmli qanunvericilik aktı özündə hissələri, bölmələri, yarımbölmələri, fəsilləri, yarımfəsilləri, maddələri, bəndləri, yarımbəndləri, abzasları ehtiva edə bilər);

3) nəticə və keçid müddəaları- qanunun hüquqi qüvvəyə minməsi ilə bağlı onun keçid müddəaları müəyyənləşdirilir (o cümlədən, qanunun ayrı-ayrı hissələrinin hüquqi qüvvəyə minməsi müddəaları, onun ehtimalla geriyə qüvvəsinin müəyyən edilməsi, habelə həmin qanunla digər normativ-hüquqi aktların hüquqi qüvvəsinin ləğv edilməsi);

4) əlavələr- (məsələn, tezaurus- həmin qanunla qanunvericiliyə daxil edilən hüquqi, texniki və digər xüsusi terminlərin nəzərdə tutulması).

Qanunyaratma prosesinin qaydaları. Özündəqanunvericilik aktlarının hazırlanması, rəs-miləşdirilməsi və hüquqi qüvvəyə minməsinin müəyyən prosedurlarını ehtiva edir. Bunlar, hər şeydən əvvəl, xüsusi qanunvericilik aktlarında, parlamentin reqlamentlərində nəzərdə tutulur, yaxud adi normativ hüquqi aktlarda (təşəkkül tapmış adət və ənənələrə əsaslanan yazılmamış sazişlərdə) qeyd olunur. Qanunyaratma prosesi yeni qanunvericilik aktının meydana gəlməsinə aparan xüsusi mərhələlərin olmasını nəzərdə tutur. Qanunvericiliyin sistemləşdirilməsi qaydası. Hüquq subyektlərinin (həm ümumi hakimiyyət orqanlarının, həm də digər orqanların) razılaşdırılmış sistemdə qanunvericilik kütləsinin nizama salınması və gerçəkləşdirilməsi üzrə fəaliyyətinin rəsmiləşdirilməsi prosedurunu nəzərdə tutur. Qanunvericiliyin sistemləşdirilməsi problemi və onun əsas komponentləri ayrıca əlahiddə şəkildə təsvir edilir.

## ƏDƏBİYYAT

1.Məlikova, M.F. (1988). *Dövlət və hüquq nəzəriyyəsi.* B.: Maarif.
2.Нисневич, Ю.А., Плантонов, В.М., & Слизовский, Д.Е. (2007). *Законодательная деятельность.* М.
3.Рахманина, Т.Н. (2005). *Кодификация законодательства.* М.
4.Кони, А.Ф. (2013). *Закон и справедливость: Статьи и речи.* М., Эксмо.
5.Лукьянов, Е.Г. (2014). *Учения о законе.* М., Норма: Инфра-М.
6.Монтескье, Ш.Л. (2013). *О духе законов.* М., Книга по требованию.
7.Иеринг, Г. (2008). *Юридическая техника.* М.

## Законодательная техника

**Габил Курбанов***

**Абстракт.** Законодательная техника охватывает в себе систему методов и средств, связанную с подготовкой в наиболее совершенном виде по структуре и своей форме проектов нормативно-правовых актов. В законодательной технике широко используется не только национальная, но и в течение сотен лет сложившаяся юридическая практика зарубежных стран. К специально-правовым средствам законодательной техники относятся нижеследующие: 1) юридический язык; 2) юридические конструкции; 3) порядок регистрации законодательного акта, процесса законотворчества; 4) систематизация законодательства. Законодательный процесс предусматривает наличие отдельных этапов, ведущих к возникновению нового законодательного акта. А проблема систематизации законодательства и его основные компоненты, описывается уже совершенно отдельным образом.

**Ключевые слова:** правовой документ, законы, правотворчество, нормативный материал, процедура, юридическая конструкция

## Legislative technique

**Habil Gurbanov***

**Abstract.** Legislative technique encompasses a system of methods and means associated with the preparation of draft legal acts in the most perfect form in terms of structure and form. In the legislative technique, not only national, but also the established legal practice of foreign countries for hundreds of years is widely used. The special legal means of legislative technique include the following: 1) legal language; 2) legal structures; 3) the procedure for registering a legislative act, the process of lawmaking; 4)

* доктор юридических наук, профессор,
Институт права и прав человека, старший научный сотрудник; Баку Азербайджан
E-mail: professorqurbanov@yandex.com
https://orcid.org/0000-0002-1893-208X
**Цитировать статью:** Курбанов, Г. [2022]. Законодательная техника. *Журнал «Metafizika». 5(4),* c.129-139.
**История статьи:**
*Статья поступила в редакцию: 12.11.2021*
*Отправлена на доработку: 24.12.2021*
*Принята для печати: 14.10.2022*

* doctor of jurisprudence, professor,
Institute of Law and Human Rights, senior researcher; Baku Azerbaijan
E-mail: professorqurbanov@yandex.com
https://orcid.org/0000-0002-1893-208X
**To cite this article:** Gurbanov, H. [2022]. Legislative technique. *"Metafizika" journal. 5(4),* pp.129-139.
**Article history:**
*Received: 12.11.2021*
*Accepted: 14.10.2022*

systematization of legislation. The legislative process provides for the existence of separate stages leading to the emergence of a new legislative And the problem of systematization of legislation and its main components described in a separate way.

**Keywords*:*** legal document, laws, law-making, normative material, procedure, legal structure

## REFERENCES

1.Malikova, M.F. (1988). *State and Legal Theory*. B.: Maarif.
2.Nisnevich, Yu.A., Plantonov, V.M., & Slizovskii, D.E. (2007*). Legislative activity.* M.
3.Rakhmanina, T.N. (2005). *Legislative codification*. M.
4.Koni, A.F. (2013). *Law and Justice: Articles and Speeches*. M., Eksmo.
5.Lukyanov, E.G. (2014). *Teachings about the law*. M., Norma: Infra-M.
6.Montesquieu, Sh.L. (2013). *About the spirit of laws.* M., Kniga po trebovaniyu.
7.Iering, G. (2008). *Legal technology*. M.